# TAM ORTA (11 İLLİK) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ 9 MART 2026-CI İL TARİXİNDƏ KEÇİRİLƏN BURAXILIŞ İMTAHANINDA İSTİFADƏ EDİLƏN TAPŞIRIQLARIN İZAHI

## English

***Listen to the passage and answer questions 1 – 6.***

Mostar is the main city of Bosnia and Herzegovina. The people of Mostar are known for their hospitality and generosity. Whether you're attending a local festival in the city or enjoying a cup of coffee at a local café, you can feel the warmth and friendliness of the people.

The city is known for its historical site Stari Most. The treasure of Mostar, Stari Most is a 16th century Ottoman-style bridge that connects the two sides of the city. This extraordinary bridge was designed by the student of the famous architect Mimar Sinan. It has been the symbol of the city for over 400 years. The city even took its name from the bridge keepers of Stari Most. They were called "Mostari". The bridge was destroyed during the Bosnian War and rebuilt in 2004.

The world's oldest diving competition takes place every year at this place. Young men jump from this bridge into the river. It shows that they are ready for the adult life. The bridge is one of the main tourist attractions of the city. The streets surrounding the bridge are lively and filled with restaurants, cafes and shops.

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Which statement is true according to the passage?

A) The city Mostar took its name from the bridge keepers.
B) The people of Mostar are considered cold and unfriendly.
C) Diving competition takes place in Mostar every month.
D) The bridge Stari Most was built in western style.
E) The neighbourhood of the bridge is known for its quietness.

**Alt-standart:**10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir və mətnə əsasən düzgün fikri seçmək tələb olunur. Verilən fikirlərdən* ***"The neighbourhood of the bridge is known for its quietness"*** *fikri doğru deyil, çünki körpünün ətrafı sakit deyildi.* ***"The bridge Stari Most was built in western style"*** *doğru deyil, çünki Stari Most qərb üslubunda deyil, Osmanlı üslubunda tikilmişdir.* ***"The people of Mostar are considered cold and unfriendly"*** *fikri də doğru deyildir, çünki Mostar əhalisi soyuqqanlı və qeyri-səmimi deyil, əksinə istiqanlı və səmimi hesab olunur.* ***"Diving competition took place in Mostar every month"*** *fikri də doğru deyil, çünki suya dalma yarışması hər ay deyil hər il keçirilir.* ***"The city of Mostar took its name from the bridge keepers"*** *fikri isə* ***doğru cavabdır,*** *çünki mətnə əsasən Mostar şəhəri adını körpü gözətçilərindən götürmüşdür.*

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

The passage is mainly about … .

A) the oldest diving competition
B) a historical site of Mostar
C) the hospitality of Mostar people
D) the bridge keepers of Stari Most
E) tourist attractions in Mostar

**Alt-standart:** 7-1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada mətndə əsasən nədən bəhs olunduğu soruşulur. Burada verilmiş* ***"the oldest diving competition"***, ***"tourist attractions in Mostar"***, ***"the bridge keepers of Stari Most"*** *və* ***"the hospitality of Mostar people"*** *fikirləri barədə mətndə məlumat verilsə də, mətn əsasən* ***"Mostar şəhərinin tarixi məkanı"*** *haqqındadır. Bu səbəbdən də, test tapşırığının* ***doğru cavabı "a historical site of Mostar"*** *olan bənddir.*

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*Stari Most … .*

1. was designed by Mimar Sinan
2. was destroyed during the Bosnian War
3. has lately become the symbol of the city
4. was reconstructed in 2004

A) 1, 4  B) 1, 2  C) 1, 3  D) 3, 4  E) 2, 4

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

**İzah***: Bu test tapşırığı dinləmə mətninə aiddir. Mətnə əsasən cümləni düzgün tamamlamaq tələb olunur. Verilmiş yarımçıq cümlə mətndə* ***"was designed by Mimar Sinan" (Stari Most memar Sinan tərəfindən dizayn edilmişdir), "has lately become the symbol of the city" (Stari Most son vaxtlarda şəhərin rəmzinə çevrilib)*** *mətnə əsasən yalnışdır və digər verilən iki fikir isə* ***"was destroyed during the Bosnian War" (Stari Most Bosniya müharibəsi zamanı dağıdılıb), "was reconstructed in 2004" (Stari Most 2004-cü ildə***

***yenidən inşa edilib)*** *bəndləri cümləni tamamlayır. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *1,3-cü bəndlər deyil, 2,4-cü bəndlərdir.*

***Fulfil the tasks number 4 – 6 in the “Answer sheets”.***

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Write the correct answer to the question according to the passage.

*What does Stari Most, the treasure of Mostar, connect?*

**Alt-standart:** 6-1.1.1. Müraciətlər zamanı sualları cavablandırır.

**İzah:** Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş suala mətnə əsasən cavab yazmaq tələb olunur. Verilmiş suala doğru cavab ***“the two sides of the city” (Mostar şəhərinin incisi Stari Most, şəhərin hər iki tərəfini birləşdirir)*** cümləsi ilə cavablandırılmalıdır.

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*Young men jump from the bridge into the river to show that they are … .*

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş cümləni dinləmə mətninə əsasən tamamlamaq tələb olunur.* **Bu natamam cümlə mətndə *“Young men jump from the bridge into the river to show that they are ready for the adult life” (Gənc adamlar körpüdən çaya tullanmaqla özlərinin yetkin həyata hazır olduqlarını nümayiş etdirirlər)*** *kimi verilmişdir. Buna görə də test tapşırığının* ***doğru cavabı “ready for the adult life”*** *fikridir.*

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Write one adjective from the passage that describes the word “*festival*”.

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş* ***“festival”*** *ismini təsvir edən sifəti yazmaq tələb olunur. Mətndə verilmiş* ***“Whether you’re attending a local festival in the city or enjoying a cup of coffee at a local café, you can feel the warmth and friendliness of the people”*** *cümləsinə əsasən, test tapşırığının* ***doğru cavabı*** *“**local**” sifətidir.*

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

Which sentences ***can’t*** be changed into the Passive Voice?

1. Alice went to the park to read a book.
2. Bazarduzu is the highest peak in Azerbaijan.
3. The teacher assessed the presentations about Shakespeare.
4. Sally saw two deer in the National Park yesterday.

A) 2, 3  B) 3, 4  C) 1, 2
D) 2, 4  E) 1, 4

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.

**Bölmə:** Məchul növ

**İzah:** *Bu test tapşırığında məchul növə çevrilə bilməyən cümlələri tapmaq tələb olunur. Xəbəri təsirsiz feillərlə ifadə olunan* ***“The teacher assessed the presentations about Shakespeare”*** *və “**Sally saw two deer in the National Park yesterday**” cümlələrində tamamlıq olduğu üçün, onları Məchul növə çevirmək mümkündür. Məchul növə çevrilə bilməyən cümlələr “**Alice went to the park to read a book**” və* ***“Bazarduzu is the highest peak in Azerbaijan”*** *cümlələridir.*

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Choose the correct option.

*My niece … speak French, but my nephew … .*

A) can, isn’t able  B) can’t, can’t
C) can, can  D) is able, can’t
E) can, can’t

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.

**Bölmə:** Feil. Modal feillər

**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq modal feil ilə tamamlamaq tələb olunur. Bəndlərdə verilən* ***“is able”*** *və* ***“isn’t able”*** *modal feil kimi özündən sonra “**to**” hissəcikli məsdər tələb etdiyinə görə doğru cavab ola bilməz, cümlədə verilən* ***“but”*** *ziddiyyət bildirən bağlayıcıları olduğu üçün bəndlərdə verilən* ***“can, can”*** *və* ***“can’t, can’t”*** *modal feilləri cümləni məntiqi cəhətdən düzgün tamamlamadığı üçün yanlışdır.* ***“can”*** *və* ***“can’t”*** *modal feilləri həm qrammatik, həm də məntiqi cəhətdən uyğun gəldiyi üçün test tapşırığının* ***doğru cavabıdır****.*

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

Choose the correct interrogative sentence.

A) How many documents did you sign?
B) How many documents you signed?
C) How many documents did you signed?
D) How many documents did signed you?
E) How many documents you did signed?

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sual cümlələri
**İzah:** *Verilən test tapşırığında düzgün sual cümləsini müəyyən edib tamamlamaq tələb olunur. Tamamlığın təyininə verilən sualda söz sırası belə olmalıdır:* ***sual sözü + isim + köməkçi feil + mübtəda + əsas feil (+ zərflik)****. Odur ki,* ***"How many documents did you sign?"*** *sual cümləsi bu testin* ***doğru cavabıdır***.

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**
Choose the correct option.
*The supervisor ... the engineers to launch their projects by Friday.*
1. expected
2. let
3. made
4. asked

A) 2, 3 B) 1, 2 C) 1, 4 D) 1, 3 E) 2, 4
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Feilin şəxssiz formaları. Mürəkkəb tamamlıq
**İzah**: *Bu test tapşırığında verilmiş cümləni feilin müvafiq forması ilə tamamlamaq tələb olunur.* ***Let və make*** *feillərindən sonra mürəkkəb tamamlığın tərkibindəki məsdər* ***"to"*** *hissəəciksiz işləndiyi üçün* ***"the engineers to launch"*** *ifadəsi doğru cavab deyil. Lakin "****expect"*** *və* ***"ask"*** *feillərindən sonra məsdər* ***"to"*** *hissəciyi tələb etdiyi üçün,* ***expected*** *və* ***asked*** *feilləri olan bənd düzgün cavabdır.*

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**
Choose the line of compound nouns.
A) kilogram, bookshelf, information
B) shoemaker, mindset, snowdrop
C) postman, darkness, bathroom
D) gentleman, playground, agreement
E) airmail, seamen, brotherhood
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** İsim
**İzah:** *Bu test tapşırığında mürəkkəb isimlərin verilmiş olduğu bəndi seçmək tələb olunur.* ***"information, darkness, agreement, brotherhood****" isimləri düzəltmə olduğu üçün həmin sözlərin qeyd olunduğu bəndlər doğru cavab deyil. Yalnız* ***"shoemaker, mindset, snowdrop"*** *bəndindəki isimlər quruluşca mürəkkəbdir. Ona görə də test tapşırığının* ***doğru cavabı "shoemaker, landscape, snowdrop"*** *isimlərinin qeyd olunduğu bənddir.*

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**
Choose the correct option.
*The professor talked ... his colleague ... his students.*
A) with, in B) to, – C) to, about
D) –, of E) by, at
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sözönü
**İzah**: *Bu test tapşırığında verilmiş cümlədə buraxılmış sözönüləri əlavə etməklə cümlələri tamamlamaq tələb olunur. Verilən cümlələrdə* ***"to talk to somebody about somebody or something"*** *ifadələri düzgün olduğu üçün* ***doğru cavab "to, about"*** *olan bənddir.*

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**
Choose the correct option.
*The girl looked at ... in the mirror.*
A) herself B) myself C) ourselves
D) themselves E) himself
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Əvəzlik
**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə boşluğu müvafiq əvəzliklə tamamlamaq tələb olunur. Verilmiş cümlədə əsasən cümlənin mübtədasının 3-cü şəxsin təkində olan* ***"the girl"*** *olmasına diqqət etmək lazımdır.* ***"Myself" "ourselves" "himself"*** *və* ***"themselves"*** *əvəzlikləri cümlənin mübtədası ilə uyğun gəlmədiyi üçün yanlış cavablardır.* ***Doğru cavab*** *mübtədaya* ***(the girl)*** *uyğun olan qayıdış əvəzliyi "****herself****"olan bənddir.*

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**
Match the words to their definitions.
1. to bother
2. to trust
3. to alter

a. to believe that somebody is honest and good
b. to make something different in some way
c. to annoy or worry somebody

A) 1 – c, 2 – a, 3 – b B) 1 – a, 2 – b, 3 – c
C) 1 – b, 2 – c, 3 – a D) 1 – b, 2 – a, 3 – c
E) 1 – c, 2 – b, 3 – a
**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**Bölmə:** Sözün mənası
**İzah:** *Bu test tapşırığında verilən sözləri izahlara uyğun şəkildə qruplaşdırmaq tələb olunur.* ***"To bother" (narahat etmək)*** *sözünün mənası* ***"to annoy or worry somebody", "to trust" (güvənmək, inanmaq) – "to believe that somebody is honest and good"*** *və* ***"to alter" (dəyişmək) –"to make something different in some way"*** *mənasını daşıdığı üçün* ***düzgün cavab*** *1 – c, 2 – a, 3 – b olan bənddir.*

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Complete the sentence.

*Do you know when … his morning exercises?*

A) has he done B) he does C) does he do
D) does he E) he has done

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır

**Bölmə**: Cümlə tamamlama

**İzah**: *Bu test tapşırığında verilmiş cümlədə buraxılmış cümlə üzvünü əlavə etməklə cümləni tamamlamaq tələb olunur. Bəndlərdə* **“has he done, does he do, does he, he has done**” *ifadələrində müvafiq olaraq sual cümlə quruluşu və The Present Perfect (İndiki Bitmiş zaman forması) olduğu üçün yanlış cavablardır.* ***Doğru cavab*** *söz sırasının düzgün olduğu “***he does”** *bəndidir.*

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Make up a sentence.

1. salad
2. the girls
3. twenty minutes
4. have been making
5. for
6. in the kitchen

A) 1, 4, 5, 2, 3, 6 B) 1, 5, 4, 3, 2, 6
C) 4, 3, 2, 5, 6, 1 D) 2, 4, 1, 6, 5, 3
E) 2, 4, 6, 1, 3, 5

**Alt-standart:** 5-4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur.

**Bölmə:** Cümlə düzəltmə

**İzah:** *Bu test tapşırığında verilmiş sözləri müvafiq ardıcıllıqla düzməklə cümlə qurmaq tələb olunur. İngilis dilinin söz sırasnı nəzərə alaraq, verilmiş sözləri doğru ardıcıllıqla düzərək,* ***“The girls have been making salad in the kitchen for twenty minutes”*** *cümləsini qururuq. Test tapşırığının doğru cavabı 2,4,1,6,5,3 olan bənddir.*

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Choose the pair of words with opposite meanings.

A) previous – next B) strong – powerful
C) defensive – protective D) mild – soft
E) massive – large

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**Bölmə:** Sözün mənası

**İzah:** *Bu test tapşırığında əks mənalı sözlər olan bəndi seçmək tələb olunur. Bəndlərdə verilmiş strong – powerful; defensive – protective; mild – soft; massive – large sözləri sinonim olduqları üçün, düzgün cavab previous (əvvəlki) – next (növbəti) olan bənddir.*

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Choose the correct option.

*… photo which was taken by William was … best one.*

A) –, the B) –, a C) The, a
D) A, a E) The, the

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Artikl

**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq artikllarla tamamlamaq tələb olunur. Verilmiş cümlədə təyin budaq cümləsi ilə təyin olunan ümümi ismin və həmçinin sifətin üstünlük dərəcəsi qarşısında müəyyənlik artiklı işlənməlidir* ***(“the photo, the best”).*** *Buna görə də test tapşırığının* ***doğru cavabı “the, the”*** *artikllarının verildiyi bənddir.*

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Choose the correct option.

*Jane travelled a lot last year, … her sister did … .*

A) neither, – B) and, either C) and, too
D) so, neither E) but, too

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə**: Qarışıq testlər

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni müvafiq sözlərlə tamamlamaq tələb olunur. Verilmiş cümlə təsdiqdə olduğu üçün* ***“and, either”, “but, too”*** *“****so, neither”, “neither, - ”*** *qısa cavabları test tapşırığının doğru cavabı deyildir. Beləliklə, test tapşırığının* ***doğru cavabı “and, too”*** *qısa cavabları olan bənddir.*

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Choose the correct option.

*Some of the insects are harmful … others are beneficial.*

A) so B) because C) how D) but E) as

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə**: Bağlayıcı

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni müvafiq bağlayıcı ilə tamamlamaq tələb olunur. Verilmiş* ***“Some of the insects are harmful … others are benefical”*** *cümləsi tabesiz mürəkkəb cümlədir. Bəndlərdə verilən* ***“so”, “because”, “how”*** *və* ***“as”*** *bağlayıcıları mantiqi cəhətdən test tapşırığının doğru cavabı deyildir. Beləliklə, bu test tapşırığının* ***doğru cavabı ziddiyyət bildirən “but”*** *bağlayıcısı olan bənddir.*

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Choose the correct option.

*This river is … and … than that one.*

A) wider, more longer B) wider, longer
C) wider, long D) wide, long
E) more wider, long

**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**Bölmə:** Sifət

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq üçün müvafiq sifətləri seçmək tələb olunur. Bildiyimiz kimi, cümlədə "***than***" bağlayıcısı sifətin müqayisə dərəcəsində olmasını tələb edir.* ***"Wide, long"*** *sözləri sifətin adi dərəcəsində olduğu,* ***"more wider, more longer"*** *ifadələri isə düzgün quruluşda olmadıqları üçün test tapşırığının* ***doğru cavabı*** *"***wider, longer***" sifətlərinin qeyd olunduğu bənddir.*

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Choose the correct tense form.

*You'd better not buy those shoes. They will hurt you when you … .*

A) will walk B) walk C) were walking
D) have walked E) walked

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Feilin zaman formaları

**İzah:** *Bu test tapşırığında feilin düzgün zaman formasını müəyyən etmək tələb olunur. Burada verilmiş cümlə zaman budaq cümləli tabeli mürəkkəb cümlədir. Baş cümlədə gələcək zaman forması (The Future Simple) işləndiyi üçün, budaq cümlədə indiki sadə zaman forması (The Present Simple) işlənən bənd* ***doğru cavabdır.***

***Read the passage and answer questions 23 – 30.***

1. Nelle Harper Lee is the author of one of the most fascinating and best-selling books of American literature. Her writing was heavily influenced by her childhood experiences in Monroeville, where she witnessed hardships and discrimination. In high school, Lee developed an interest in English literature and became a member of the Literary Honour Society. Maintaining her interest in writing, Lee contributed to the school's newspaper, the Rammer Jammer.

2. Although Lee was later accepted into law school, her enthusiasm for writing never ended. Therefore, she left the university and decided to pursue her dream of becoming a writer. Her first book "To Kill a Mockingbird" was a huge success. This timeless work has had a lasting impact on literature, addressing the topics like injustice, moral growth, and empathy.

3. The novel "To Kill a Mockingbird" has been translated into about 40 languages with more than a million copies sold each year. Afterwards, she was awarded the prestigious Pulitzer Prize for Fiction. She was also presented with the Presidential Medal of Freedom by President George W. Bush in 2007 for her contributions to literature. Later in 2015, Lee published her long-awaited novel "Go Set a Watchman", which had been written before "To Kill a Mockingbird".

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Which statement is true according to the passage?

A) Harper Lee was awarded the Pulitzer Prize for Fiction for "Go Set a Watchman".
B) The first book of Harper Lee was a complete failure.
C) "Go Set a Watchman" was printed before "To Kill a Mockingbird".
D) "To kill a Mockingbird" has had a great influence on literature.
E) President George W. Bush awarded Lee for her achievements at the university.

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnə əsasən düzgün fikirləri seçmək tələb olunur. Mətnlə tanış olduqda görürük ki,* ***"Harper Lee was awarded the Pulitzer Prize for Fiction for "Go Set a Watchman", "The first book of Harper Lee was a complete failure" , "Go Set a Watchman" was printed before "To Kill a Mockingbird" və "President George W. Bush awarded Lee for her achievements at the university"*** *fikirlərində təhriflər var.* ***"This timeless work has had a lasting impact on literature" (Bu ölməz əsərin ədəbiyyata sonsuz təsiri var)*** *fikri mətndə öz əksini tapdığına görə, test tapşırığının* ***doğru cavabı*** *"***To kill a Mockingbird has had a great influence on literature***" olan bənddir.*

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*Harper Lee … .*

A) had a degree in law before becoming a writer
B) had a happy and carefree childhood in Monroeville
C) became interested in English literature in high school
D) founded the newspaper, the Rammer Jammer
E) always dreamed about getting accepted to a law school

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən cümlənin düzgün sonluğunu müəyyən etmək tələb olunur. Verilmiş yarımçıq cümləni tamamlamaq üçün mətnin 1-ci abzasının 3-cü cümləsinə nəzər yetirmək lazımdır:* ***"In high school, Lee developed an interest in English literature and became a member of the Literary Honour Society."*** *Ali məktəbdə Linin ingilis ədəbiyyatına marağı artır və o Ədəbiyyatsevərlər Cəmiyyətinə üzv olur. Buradan aydın olur ki, test tapşırığının* ***doğru cavabı "became interested in English literature in high school"*** *fikrinin qeyd olunduğu bənddir.*

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**
Choose the correct answer to the question according to the passage.
*What had an effect on Nelle Harper Lee's writing?*
1. unfair treatment towards other people
2. the success of her published books
3. the difficulties she experienced
4. the Literary Honour Society

A) 1, 4 B) 1, 3 C) 2, 4 D) 2, 3 E) 1, 2

**Alt-standart:** 5-3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Verilmiş sualda* ***(What had an effect on Nelle Harper Lee's writing?)*** *Nel Harper Linin yaradıcılığına nəyin təsiri olduğu soruşulur, bu barədə düzgün fikirləri seçmək tələb olunur. Mətnin 1-ci abzasında verilən 2-ci cümlədən bu sualın cavabını müəyyənləşdirmək mümkündür:* ***"Her writing was heavily influenced by her childhood experiences in Monroeville, where she witnessed hardships and discrimination."*** *Bu cümlədən aydın olur ki, test tapşırığının* ***doğru cavabı "unfair treatment towards other people"*** *və* ***"the difficulties she experienced"*** *olan bənddir.*

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**
The passage is mainly about … .
A) an award-winning American writer
B) childhood years of Nelle Harper Lee
C) well-known books of American literature
D) different works written by Harper Lee
E) the best-selling book of Harper Lee

**Alt-standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnin əsasən nədən bəhs etdiyi soruşulur. Verilmiş bəndlərdən* ***"childhood years of Nelle Harper Lee", "well-known books of American literature", "different works written by Harper Lee"*** *və* ***"the best-selling book of Harper Lee"*** *fikirləri mətndə verilsə də, mətnin əsas məzmununu təşkil etmir. Mətn, əsasən,* ***mükafat qazanan Amerikan yazıcısı Harper Lidən*** *bəhs etdiyi üçün test tapşırığının* ***doğru cavabı "an award-winning American writer"*** *olan bənddir.*

***Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".***

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**
Which word from paragraph 1 best fits the definition "*to see or observe something happen*"?
**Alt-standart:** 7- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada izahı verilmiş sözü 1-ci abzasda müəyyən edib yazmaq tələb olunur. İzahı verilən söz* ***"to witness" (şahid olmaq)*** *feilidir.*

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**
Write the synonym of the word "*passion*" from paragraph 2.
**Alt-standart:** 10-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada* ***"passion" (böyük həvəs)*** *sözünün abzas 2-də sinonimini müəyyən edib yazmaq tələb olunur. Bu test tapşırığının* ***doğru cavabı "enthusiasm" (güclü maraq)*** *sözüdür.*

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**
Complete the sentence by changing at least 2 words according to the passage.
*She left the university and … .*
**Alt-standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır; 9-3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş cümləni mətnə əsasən ən azı 2 sözü dəyişməklə tamamlamaq tələb olunur. Verilmiş "She left the university and … ." cümləsini* ***"decided (made up her mind, made a decision) to pursue (follow, chase) her dream (wish/desire) of becoming a writer (to be an author)"*** *şəklində tamamlamaq mümkündür.*

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**
Answer the question by expressing your opinion. Write at least three sentences.
*Which childhood dream would you like to realise and why?*
**Alt-standart:** *7 – 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10 – 4.1.3. Cümlələri və abzasları*

*düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir. 11 – 3.1.4. Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirərək şərh edir.*

**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrindən yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*

*In my childhood, I used to dream of being an architect. I would often draw up drafts of some cities and show them to my family and friends. After taking today's exam, I will almost be close to fulfilling my dream. I believe I will contribute to my city's landscape design.*

## Azərbaycan dili

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**

*"Nəhayət, hərbi xidməti başa vurduqdan sonra gimnaziyadan şəhadətnaməmi aldım"* cümləsinin sintaktik təhlil sxemini müəyyən edin.

A) ------- ~~~~~~ ------- ======
B) ~~~~~~ ~~~~~~ ~~~~~~ ======
C) ~~~~~~ ______ ------- ======
D) ------- ~~~~~~ ~~~~~~ ------- ======
E) ~~~~~~ ~~~~~~ ------- ======

***Mövzu:*** Sintaktik təhlil
***Sinif:*** 8
***İzah:*** *Nəhayət, hərbi xidməti başa vurduqdan sonra gimnaziyadan şəhadətnaməmi aldım* nümunəsində *hərbi xidməti başa vurduqdan sonra* zərflik, *gimnaziyadan* zərflik, *şəhadətnaməmi* tamamlıq, *aldım* sözü xəbərdir. *Nəhayət* modal söz olduğu üçün heç bir cümlə üzvə yerində işlənməmişdir.
***Doğru cavab*:** ~~~~~~ ~~~~~~ ------- ======

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

Hansı cümlədə feili sifət tərkibi işlənib?
A) Ev sahibləri gələn qonaqları mehribanlıqla qarşıladılar.
B) Ahəstə süzən qartal anidən şikarına tərəf şığıdı.
C) Asif yazılmış məktubu qatlayıb zərfə qoydu.
D) Dostum, oxuyan məqsədinə çatar.
E) Yaşıllaşan ağaclar göz oxşayırdı.

***Mövzu:*** Sintaksis
***Sinif:*** 8
***İzah:*** *Ev sahibləri gələn qonaqları mehribanlıqla qarşıladılar* cümləsində *gələn; Asif yazılmış məktubu qatlayıb zərfə qoydu* cümləsində *yazılmış; Dostum, oxuyan məqsədinə çatar* cümləsində *oxuyan; Yaşıllaşan ağaclar göz oxşayırdı* cümləsində *yaşıllaşan* sözləri feili sifət tərkibi yaratmamışdır. *Ahəstə süzən qartal anidən şikarına tərəf şığıdı* cümləsində isə *ahəstə süzən* feili sifət tərkibidir.
***Doğru cavab*:** Ahəstə süzən qartal anidən şikarına tərəf şığıdı.

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

Nümunə ilə bağlı ***yanlış*** fikri müəyyən edin.

*Yerimək öyrətdin tutub əlimdən,*
*Dolaşdım aranı, dolaşdım dağı.*
*Balana yerimək öyrədincə sən,*
*Gərək öyrədəydin yıxılmamağı.* (B. Vahabzadə)

A) Əvəzliyin bir məna növündən istifadə edilmişdir.
B) Yönlük halda işlənmiş söz mənsubiyyət şəkilçilidir.
C) İkinci misrada işlənmiş isimlər təsirlik haldadır.
D) Təsriflənən feillərin hamısı xəbər şəklindədir.
E) Yalnız qrammatik mənası olan bir söz işlənmişdir.

***Mövzu:*** Morfoloji təhlil
***Sinif:*** 5-7
***İzah:*** Əvəzliyin bir məna növündən (*sən* - şəxs əvəzliyi) istifadə edilmişdir. *Balana* sözü yönlük halda işlənmiş mənsubiyyət şəkilçili sözdür. İkinci misrada işlənmiş *aranı, dağı* isimləri təsirlik haldadır. Yalnız qrammatik mənası olan bir söz (*gərək* ədatı) işlənmişdir. Təsriflənən feillərin üçü *(öyrətdin, dolaşdım, dolaşdım)* xəbər şəklində, biri *(öyrədəydin)* arzu şəklindədir.
***Doğru cavab*:** Təsriflənən feillərin hamısı xəbər şəklindədir.

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

Tərzi-hərəkət zərfinin təsriflənməyən feilə aid olduğu nümunələri müəyyən edin.
1. Tamamilə xəbərsiz idi ki, necə gəliblər.
2. Belə danışmağın heç bir əsası yoxdur.
3. Onlar ev yiyəsi ilə gülə-gülə salamlaşıb içəri keçdilər.
4. Şuşada çiyin-çiyinə döyüşdüyü dostlarını heç vaxt unutmurdu.
5. Öz uğurlarından iftixarla danışan sədr indi susmuşdu.
6. Dilucu təşəkkür edib çölə çıxdı.

A) 2, 3, 6 B) 1, 3, 4, 5 C) 4, 5, 6
D) 2, 3, 5 E) 1, 2, 4, 6

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-7
***İzah:*** 1. *Tamamilə xəbərsiz idi ki, necə gəliblər* cümləsində *tamamilə* zərfi sifətə aiddir.
2. *Belə danışmağın heç bir əsası yoxdur* cümləsində zərf işlənməmişdir.
3. *Onlar ev yiyəsi ilə gülə-gülə salamlaşıb içəri keçdilər* cümləsində *gülə-gülə* ifadəsi feili bağlamadır.
4. *Şuşada çiyin-çiyinə döyüşdüyü dostlarını heç vaxt unutmurdu* cümləsində *çiyin-çiyinə* tərzi-hərəkət zərfi feili sifətə (*döyüşdüyü*); 5. *Öz uğurlarından iftixarla danışan sədr indi susmuşdu* cümləsində *iftixarla* tərzi-hərəkət zərfi

feili sifətə *(danışan)*; 6. *Dilucu təşəkkür edib çölə çıxdı* cümləsində *dilucu* tərzi-hərəkət zərfi feili bağlamaya (*təşəkkür edib)* aiddir.
**Doğru cavab**: 4, 5, 6

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

***Uyğunsuzluğu*** müəyyən edin.
I Vasitəsiz nitqli cümlə (durğu işarələri buraxılmışdır)
II Vasitəsiz nitqli cümlənin sxemi
A) I Qarı bir az düşünüb Yaxşı qərar sənindir dedi
II M: “V”,–m.
B) I Bəli dedi bir dəfə yerli bələdçilərlə qoruğa getmişdik
II M: “V”.
C) I Biz demək olar ki çatmışıq deyə Səlim gülümsədi
II “V”,–m.
D) I Mən buradayam komandir cəld dilləndim bura gələ bilərsinizmi
II “V,–m,–v?”
E) I Kapitan səmimiyyətlə dedi Sizi təbrik edirəm leytenant
II M: “V”.

***Mövzu:*** Vasitəsiz nitq
***Sinif: :*** 9
***İzah:*** Durğu işarələri bərpa olunmuş *Qarı bir az düşünüb: “Yaxşı, qərar sənindir”,-* dedi (*M: “V”,– m.);* *“Biz, demək olar ki, çatmışıq”,- deyə Səlim gülümsədi.* (*“V”,– m.)*; *“Mən buradayam, komandir,- cəld dilləndim,- bura gələ bilərsinizmi?”* ( *“V,–m,– v?”*) *Kapitan səmimiyyətlə dedi: “Sizi təbrik edirəm, leytenant”* ( *M: “V”.)* cümlələri verilmiş sxemlərə uyğun gəlir. “*Bəli,- dedi,- bir dəfə yerli bələdçilərlə qoruğa getmişdik”* cümləsinin sxemi yanlış verilmişdir, cümlənin sxemi belə olmalıdır: *“V,–m,– v”.*
***Doğru cavab:*** I Bəli dedi bir dəfə yerli bələdçilərlə qoruğa getmişdik.
II M: “V”.

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Klasteri tamamlaya ***bilməz***:




1. Üç cingiltili samit işlənmişdir.
2. [ ğ ] samitinin kar qarşılığı işlənib.
3. Açıq saitlərin sayı qapalı saitlərin sayından çoxdur.
4. Deyilişi ilə yazılışı arasında iki fərqli məqam var.
5. Yanaşı işlənən kar və cingiltili samitlər var.
6. Kar qarşılığı olan bir samit işlənib.

A) 2, 3, 6  B) 2, 4, 6  C) 1, 2, 3, 5
D) 4, 5, 6  E) 1, 3, 4, 5

***Mövzu:*** Fonetika
***Sinif:*** 5
***İzah:*** *Uşaqcanlı* sözü *[uşaxcannı]* kimi, *açıq-aşkar* sözü *[ açığ-aşgar]* kimi tələffüz olunur.
1. Hər iki sözdə üç cingiltili samit işlənmişdir.
2. *Uşaqcanlı* sözündə *[ğ]* samitinin kar qarşılığı olan *[x]* işlənmişdir. *Açıq-aşkar* sözündə isə *[ğ]* samitinin kar qarşılığı işlənməmişdir.
3. *Açıq-aşkar* sözündə açıq saitlərin sayı qapalı saitlərin sayından çox olsa da, *uşaqcanlı* sözündə açıq və qapalı saitlərin sayı bərabərdir.
4. Hər iki sözün deyilişi ilə yazılışı arasında iki fərqli məqam var.
5. Hər iki sözdə cingiltili və kar samit (*uşaqcanlı* sözündə *[x]* və *[c]*, *açıq-aşkar* sözündə *[ş]* və *[g]*) yanaşı işlənmişdir.
6. *Uşaqcanlı* sözündə kar qarşılığı olan bir samit (*[c]*), *açıq-aşkar* sözündə kar qarşılığı olan iki samit (*[ğ]* və *[g]*) işlənmişdir.
***Doğru cavab:*** *2,3,6*

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

Nümunələrə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

● *Gəncliyim, şərəfim, müqəddəratım*
*Bir ürkək ceyranın əlinə düşdü.* (M. Müşfiq)
● *Qayıt, yerinə qoy Ayı, Günəşi,*
*Yenə olduğutək görüm həyatı.*
*Qayıt, gözüm nuru, könlüm atəşi,*
*Qayıt, sahmana sal bu kainatı!* (Ə. Kərim)

| ***Nümunələrin hər ikisinə aiddir*** | ***Nümunələrin yalnız birinə aiddir*** |
|---|---|
| 1. Nitq hissəsi ilə ifadə olunan həmcins üzvlər işlənmişdir.<br>2. Baş üzvlərdən birinin həmcinsliyi var.<br>3. Həmcins üzvlər uzlaşma əlaqəsində əsas tərəfdir. | 4. İki fərqli cümlə üzvü həmcinsdir.<br>5. Həmcins mübtədaların ifadə vasitəsi söz birləşməsidir.<br>6. Həmcins tamamlıqlar işlənmişdir. |

A) 1, 3, 4, 5  B) 1, 2, 4, 6  C) 3, 5, 6
D) 2, 3, 4  E) 1, 2, 5, 6

***Mövzu:*** Həmcins üzvlər
***Sinif:*** 8
***İzah:*** 1. Nümunələrin hər ikisində nitq hissəsi ilə ifadə olunmuş həmcins üzvlər (birinci nümunədə *Gəncliyim, şərəfim, müqəddəratım;* ikinci nümunədə *Ayı, Günəşi və qayıt, qoy)* işlənmişdir.
2. Baş üzvlərdən birinin (birinci nümunədə mübtədanın, ikinci nümunədə xəbərin) həmcinsliyi var.
3. *Həmcins üzvlər uzlaşma əlaqəsində əsas tərəfdir* fikri yalnız birinci nümunəyə aiddir, həmin nümunədə həmcins mübtədalar (*Gəncliyim, şərəfim, müqəddəratım)* uzlaşma əlaqəsində əsas tərəfdir.
4. *İki fərqli cümlə üzvü həmcinsdir* fikri ikinci nümunədə (xəbər, tamamlıq) öz təsdiqini tapır.
5. *Həmcins mübtədaların ifadə vasitəsi söz birləşməsidir* fikri yanlışdır, ikinci nümunədə işlənmiş söz birləşmələri xitabdır.
6. *Həmcins tamamlıqlar işlənmişdir* fikri ikinci nümunəyə (*Ayı, Günəşi)* aiddir.

***Doğru cavab:*** 1, 2, 4, 6

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

Biri mürəkkəb addır:

A) ədəbiyyat müəllimi B) dəvəquşu
C) Novruz bayramı D) Gülyaz E) günəbaxan

***Mövzu:*** Mürəkkəb ad
***Sinif:*** 8
***İzah:*** *Novruz bayramı* söz birləşməsi şəklində olan mürəkkəb addır. *Dəvəquşu, Gülyaz, günəbaxan* sözləri müxtəlifmənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözdür, *ədəbiyyat müəllimi* söz birləşməsidir.
***Doğru cavab:*** Novruz bayramı

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Cərgələrdən birindəki sözlər ⎴^^ sxeminə uyğundur:

A) peşəkarcasına, küskündür
B) dahiyanə, çəkiliş C) tanışlıq, işlətdikcə
D) genəldir, yüksəklikdəki E) oxşarlıq, bərkit

***Mövzu:*** Sözün tərkibinə görə təhlili
***Sinif:*** 5
***İzah:*** *peşəkarcasına* sözündə iki leksik, *küskündür* sözündə bir leksik, bir qrammatik; *dahiyanə* sözündə bir leksik, *çəkiliş* sözündə iki leksik; *tanışlıq* sözündə iki leksik, *işlədikcə* sözündə iki leksik, bir qrammatik; *genəldir* sözündə iki leksik, bir qrammatik, *yüksəklikdəki* sözündə iki leksik; *oxşarlıq* və *bərkitmək* sözlərində iki leksik şəkilçi işlənmişdir.
***Doğru cavab:*** *oxşarlıq, bərkit*

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

*"Ölkəmizin beynəlxalq arenada qazandığı uğurlar idmana qarşı xüsusi diqqət göstərildiyinə dəlalət edir"* cümləsi ilə bağlı doğru fikirdir:

A) Quruluşca mürəkkəb, xəbər şəklində olan feil xəbərin ifadə vasitəsidir.
B) Feillər qayıdış və məlum növdədir.
C) Şəxsə və kəmiyyətə görə dəyişməyən feillər eyni cümlə üzvü vəzifəsindədir.
D) Feilin bütün təsriflənməyən formalarına aid nümunə işlənmişdir.
E) Feillərin hər biri söz birləşməsinin əsas tərəfini təşkil edir.

***Mövzu:*** Feil
***Sinif:*** 5-7
***İzah:*** Quruluşca mürəkkəb, xəbər şəklində olan feil (*dəlalət edir*) xəbərin ifadə vasitəsidir. Feillər qayıdış və məlum növdə yox, şəxssiz və məlum növdədir. Şəxsə və kəmiyyətə görə dəyişməyən feillər tərkib yaradaraq təyin və tamamlıq vəzifəsində işlənmişdir. Feilin təsriflənməyən formalarından yalnız feili sifət işlənmişdir. Nümunədə işlənən üç feildən ikisi söz birləşməsinin əsas tərəfini təşkil edir.
***Doğru cavab:*** Quruluşca mürəkkəb, xəbər şəklində olan feil xəbərin ifadə vasitəsidir.

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Dərbənd ətrafında**

Şirvan üzərinə *yerimək*[1] üçün Dərbənd yaxınlığında düşərgə salmış Toxtamış xan həmişəkindən fərqli olaraq, bu gün şad-xürrəm görünürdü. **1.** Hökmdarın çadırına toplaşmış əyanlar, sərkərdələr ondakı bu dəyişikliyin səbəbini öyrənməyə çalışırdılar. Toxtamış xan onların bu intizarına son qoymaq vaxtının çatdığını anlayıbmış kimi dedi:

– Səhər çaparlarımız xəbər gətirdilər ki, ədavət basladiyimiz Əmir Teymur Kür çayının sahilində düşərgə salıb. <u>Görünür, müttəfiqi İbrahimə kömək etmək fikrində deyil.</u> Biz Şirvanşah İbrahimi təkləyib məğlub edər, Şirvandan da çoxlu qənimət qopararıq.

Toxtamış xanın ▲ ***təyin etdiyi*** vaxtda bütün qoşun ayaq üstündə idi. Qala divarlarını dağıtmaq təlimatı almış döyüşçülər Dərbənd üzərinə yeriməyə başladılar. **2.** Lakin onlarla qala arasında hətta əlli addımdan az məsafə qalanda da oradan bir oxun belə atılmaması Toxtamış xanın ən yaxın adamı Cormağan xanı təəccübləndirdi. <u>Qaladakı sakitliyi görən Toxtamış xan da narahat oldu</u>. O:

– İbrahimin, görünür, nəsə bir ■ ***kələyi*** var, – dedi, sonra bir az irəli *yeridi*[2] və gözlərini qalaya zilləyib davam etdi, – ola bilər ki, döyüşçülər qala divarlarına yaxınlaşan kimi neft yandırıb onların üzərinə tökməyə hazırlaşırlar.

**3.** Xanın əmri ilə belə vəziyyətlərdə təcrübəli olan döyüşçülər irəli yeridilər. **4.** Onların əllərində dairəsi iri, qalxanabənzər qorunma alətləri var idi. Onlar qala divarlarına çatdılar, lakin qaladan müqavimət görmədilər. Qala darvazalarını itələdilər, bağlı idi.

Döyüşçülərin hərəkətlərini izləyən Toxtamış xan dedi:

– Qala boşdur. İbrahim xan yaxşı bilirdi ki, otuz min nəfərlik qoşunla mənim qabağıma çıxmaq döyüşçülərini qırğına vermək deməkdir. Çəkilib gedib.

Cormağan xan Dərbənd darvazalarını sındırmağı əmr etdi. Bu, şəhərin deyil, Dərbənd keçidinin darvazaları idi. Qala, həqiqətən də, boş idi. Cormağan xan şəhərin də boş olduğunu zənn edib döyüşçülərə şəhər darvazalarını da açmaq üçün hasarlara dırmaşmağı əmr etdi. Lakin döyüşçülər hasarlara yaxınlaşa bilmədilər, onların üzərinə ox yağdırıldı.

Toxtamış xan şəhərin alınmasının həm (1.)................... hesabına olacağını, həm də (2.).................... itirəcəyini nəzərə alıb dedi:

– Bizə Şirvan torpaqlarına girməkdən ötrü keçid lazım idi. İndi keçid bizim əlimizdədir. **5.** İbrahim uzun müddət özünə gələ bilməz. Tələsməliyik, Şirvanın içərilərinə doğru irəliləməliyik.

Toxtamış xanın qoşunu Samur çayına doğru hərəkətə başlayarkən Şirvanşah İbrahim də düşmən qoşununun yolu üstündəki kəndlərdən əhalini ● ***təxliyə edir***, qoşununun sayını artırır, müttəfiqləri ilə danışıqlar apararaq əks-həmləyə hazırlaşırdı.

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 45 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

Mətnə əsasən səbəbini müəyyən etmək mümkün ***deyil***:

1. Əmir Teymurun Kür çayının sahilində düşərgə salmasının
2. Döyüşçülərin şəhərin hasarlarına yaxınlaşa bilməməsinin
3. Cormağan xanın heyrətlənməsinin
4. Qalanın içindəki sakitliyin
5. Toxtamış xanın Əmir Teymura ədavət bəsləməsinin

A) 2, 3, 4 B) 3, 5 C) 1, 5 D) 2, 4, 5 E) 1, 4

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***İzah:*** Döyüşçülərin şəhər hasarlarına yaxınlaşa bilməməsinin səbəbi onların üzərinə ox yağdırılması idi. Cormağan xanın heyrətlənməsinin səbəbi onlarla qala arasında hətta əlli addımdan az məsafə qalanda da qaladan bir oxun belə atılmaması idi. Qalanın içindəki sakitliyin səbəbi qalanın boş olması idi.

Əmir Teymurun Kür çayının sahilində düşərgə salmasının və Toxtamış xanın Əmir Teymura ədavət bəsləməsinin səbəbini mətn əsasında müəyyən etmək mümkün deyil.

***Doğru cavab:*** 1, 5

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 41 saylı test tapşırığı**
**C variantı 43 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

Əvvəlində rəqəm yazılmış hansı cümlələr mətndən çıxarılsa, məzmuna xələl ***gəlməz***?

A) 1, 2 B) 1, 4 C) 2, 3 D) 4, 5 E) 3, 5

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***İzah:*** ***1.*** *Hökmdarın çadırına toplaşmış əyanlar, sərkərdələr ondakı bu dəyişikliyin səbəbini öyrənməyə çalışırdılar;* ***2.*** *Lakin onlarla qala arasında hətta əlli addımdan az məsafə qalanda da oradan bir oxun belə atılmaması Toxtamış xanın ən yaxın adamı Cormağan xanı təəccübləndirdi;* ***3.*** *Xanın əmri ilə belə vəziyyətlərdə təcrübəli olan döyüşçülər irəli yeridilər* cümlələri mətndən çıxarılsa, mətnin məzmununa xələl gələr.

***4.*** *Onların əllərində dairəsi iri, qalxanabənzər qorunma alətləri var idi;* ***5.*** *İbrahim uzun müddət özünə gələ bilməz* cümlələri mətndən çıxarılsa, mətnin məzmununa xələl gəlməz.

***Doğru cavab:*** 4, 5

**A variantı 43 saylı test tapşırığı**
**B variantı 45 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 41 saylı test tapşırığı**

Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** | ***Ehtimaldır*** |
|---|---|---|
| 1. Toxtamışın planları arasında maddi mənfəət əldə etmək də var idi. | 3. Qalada müqavimətlə qarşılaşan Toxtamış xan geri çəkilməyə məcbur olur. | 5. Çaparın gətirdiyi xəbər Toxtamış xanın əhvali-ruhiyyəsində dəyişikliyə səbəb olur. |
| 2. Şirvanşah İbrahim əhalini Dərbənddən zorla çıxartmışdı. | 4. Dərbənd üzərinə hücuma keçən döyüşçülər qala divarlarını dağıtmaq üçün göstəriş almışdılar. | 6. Şirvanşah İbrahimlə Əmir Teymur arasında soyuqluq var idi. |

A) 2, 4, 6 B) 1, 3, 4, 5 C) 1, 3, 6
D) 2, 3, 5 E) 1, 4, 5, 6

***Mövzu:***

***Sinif:*** 5-11

***İzah:*** 1. *Toxtamışın planları arasında maddi mənfəət əldə etmək də var idi. O, Şirvandan çoxlu qənimət qoparmaq fikrində idi.*

2. *Şirvanşah İbrahimin əhalini Dərbənddən zorla çıxartması* haqqında mətndə məlumat verilməmişdir.
3. *Qalada müqavimətlə qarşılaşan Toxtamış xan geri çəkilməyə məcbur olur* fikri yanlışdır. Çünki qala boş idi.
4. *Dərbənd üzərinə hücuma keçən döyüşçülər qala divarlarını dağıtmaq üçün göstəriş almışdılar;* 5. *Çaparın gətirdiyi xəbər Toxtamış xanın əhvali-ruhiyyəsində dəyişikliyə səbəb olur* fikirləri doğrudur.
6. *Şirvanşah İbrahimlə Əmir Teymur arasında soyuqluq olması* fikri mətndə öz əksini tapmamışdır.

***Doğru cavab:*** 1, 3, 6

**A variantı 44 saylı test tapşırığı**
**B variantı 42 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**

Klasteri tamamlayan fikirləri müəyyən edin.




1. Dərbənd keçidinin ələ keçirilməsini əhəmiyyətli hesab edir.
2. düşməninin necə həmlə edəcəyini qabaqcadan dəqiq müəyyən edir.
3. yaranan fürsətləri dəyərləndirir.
4. Şirvanşah İbrahimin müttəfiqi ilə danışıqlar aparır.
5. şəhərin boş olduğunu güman edib döyüşçülərə şəhərə daxil olmağı əmr edir.

A) 1, 5 B) 1, 3 C) 3, 5 D) 1, 2, 4 E) 2, 4, 5

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***İzah:*** Toxtamış xan:

1. *Dərbənd keçidinin ələ keçirilməsini əhəmiyyətli hesab edir*, çünki Şirvan torpağına girmək üçün keçid lazım idi. O da Toxtamışın əlində idi.
2. *düşməninin necə həmlə edəcəyini qabaqcadan dəqiq müəyyən edə bilir* fikri yanlışdır. O, qaladakı sakitliyi görəndə İbrahimin kələyi olduğunu, qalada müqavimətlə qarşılaşacaqlarını düşünür.
3. *yaranan fürsətləri dəyərləndirir* fikri doğrudur. Əmir Teymurun Kür çayı sahilində düşərgə saldığını eşidib Şirvanşah İbrahimi təkləyərək məğlub etmək istəyir.
4. *Şirvanşah İbrahimin müttəfiqi ilə danışıqlar aparması* fikri mətndə öz əksini tapmayıb.
5. *şəhərin boş olduğunu güman edib döyüşçülərə şəhərə daxil olmağı əmr edir* fikri yanlışdır. Şəhərin boş olduğunu

güman edib döyüşçülərə şəhərə daxil olmağı əmr edən Cormağan xan idi.
***Doğru cavab:*** 1, 3

**A variantı 45 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 42 saylı test tapşırığı**
**D variantı 45 saylı test tapşırığı**

Üzərində rəqəm yazılmış sözlər əsasında uyğunluğu müəyyən edin.
1.
2.
a. *Addımlamaq* sözünün qarşılığıdır.
b. *Saat heç yerimir, ürəyim lap sıxıldı* cümləsində kontekstə görə eyni mənanı ifadə edən söz işlənmişdir.
c. *Hücum etmək* anlamındadır.
d. *Bir qoca köhnə paltar əynində,*
*Yeriyir yolda torba çiynində* (A. Səhhət) nümunəsində kontekstə görə eyni mənanı daşıyan söz var.
e. *Bu işlər bizim vilayətdə yerimәz, vəssalam* (C. Məmmədquluzadə) nümunəsində kontekstə görə mətndəki mənaya uyğun ifadə işlənmişdir.
